AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ
İNCƏSƏNƏT UNİVERSİTETİ

Muzeyşünaslıq kafedrası
Bakalavr təhsil pilləsi üçün
"MUZEY VƏ ARXİV MƏNBƏŞÜNASLIĞI"
fənni üzrə

PROQRAM

Bakı – 2018

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

Muzeyşünaslıq kafedrası

Bakalavr təhsil pilləsi üçün

"MUZEY VƏ ARXİV MƏNBƏŞÜNASLIĞI"

fənni üzrə

PROQRAM

050301. "Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması"

Fənnin kodu: İPF-B15

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 18.05.2018-ci il tarixli F-367 saylı əmri ilə təsdiq edilmişdir.

Bakı – 2018

Tərtib edən: Elfira Hacıbaba qızı Məlikova
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

Elmi redaktor: Yeganə Məhəmməd qızı Eyvazova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: Sima Kərim qızı Babayeva
Azərbaycan Dövlət Arxivinin direktor müavini,
filologiya üzrə fəlsəfə doktoru

İlhamə Hicran qızı Səfərova
Kulturologiya üzrə fəlsəfə doktoru, dosent

© ADMİU

İzahat vərəqi

Muzey və arxiv mənbəşünaslığı fənninin əsas tədqiqat obyekti muzey əşyasıdır. Lakin bu prosesdə muzeyşünaslığın nəzəriyyə və metodikasının öyrənilməsinin mühümlüyü önə keçir. Belə ki, mənbəşünaslıq anlayışı əsas götürülsə də araşdırmalar muzey işinin tarixinin öyrənilməsinə yönəlir. Tarixşünaslıq materialları da bu tədqiqatların bazası kimi çıxış edir.

Muzey və arxiv mənbəşünaslığı digər profil fənlərinin ümumi mənbəşünaslığından obyekt və məqsəd, xüsusilə tədqiqat metoduna görə fərqlənir. Muzey toplularının bütün mənbə tiplərini öyrənərkən, muzey haqqında bütöv təsəvvürün yaradılması üçün qarşıya muzey predmetinin tarixi və mədəni dəyərinin araşdırılması qoyulur.

Muzey və arxiv mənbəşünaslığının bir xüsusiyyəti də digər profil fənlərlə qarşılıqlı inteqrasiyasıdır. Tarixi muzey mənbəşünaslığı və tarixi fənlərin mənbəşünaslığı öz aralarında yaxınlıq təşkil edir. Onlar bir çox məsələlərdə, obyektlərdə, tədqiqat metodlarında qarşılaşır. Lakin buna baxmayaraq muzey mənbəşünaslığı ilk növbədə, muzey əşyasının mənbə tiplərinin öyrənilməsinə yönəldilmişdir.

Arxiv mənbəşünaslığının muzey mənbəşünaslığı ilə oxşarlığı məhz arxivin bazasında olan, yəni fondlarında saxlanan orijinal materialların öyrənilməsinə yönəldilməsidir.

Hazırkı fənnin **məqsədi** - tələbələrdə muzey və arxiv mənbəşünaslığının əsasları haqqında təsəvvürlərin formalaşdırılmasnı təşkil edir. Mənbəşünaslıq tarixi mənbələr haqqında elmdir. Tarixi mənbə- sosial hadisə və proseslər haqqında məlumatların əldə olunması üçün istifadə olunan insan fəaliyyətinin məqsədyönlü məhsuludur. Mənbəşünaslığın əsas məqsədi- mənbənin sosial informasiya xassəsinin müəyyənləşdirilməsi və bu

nöqteyi-nəzərdən mənbənin özünün dəyərləndirilməsindən ibarətdir.

"Muzey və arxiv mənbəşünaslığı" kursu "Mənbəşünaslıq" kimi fundamental kursa istinad edir.

"Muzey və arxiv mənbəşünaslığı" kursu tələbələrin mənbəşünaslığın əsas anlayışlarını, tipologiyasını bilməsini, hər bir mənbənin mənbəşünaslıq təhlilinə cəlbinin metod və üsullarını tətbiq etməsini, mənbəşünaslıq təhlilinin peşəkar vərdişlərə, müxtəlif tarixli, müxtəlif tipli, müxtəlif növlü tarixi mənbələrlə işləməyin vərdişlərinə yiyələnməsini nəzərdə tutur.

"Muzey və arxiv mənbəşünaslığı" fənni üzrə proqram "Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması" ixtisasında bakalavr təhsil pilləsi üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur. Fənnin tədrisinə 5 kredit, ümumi 60 saat (30 saat mühazirə, 30 saat seminar) ayrılmışdır.

№	Mövzuların adı	Müh.	Sem.
1.	Muzey mənbəşünaslığının muzeyşünaslıq aspektindən təhlili. Muzey mənbəşünaslığının obyekti və predmeti	2	2
2.	"Mənbə" və "muzey mənbəyi" anlayışları	2	2
3.	Muzey əşyası tarixi mənbə kimi	2	2
4.	Mənbələrin təsnifatı	2	2
5.	Muzey evristikası	2	2
6.	Muzeylərin mənbə mətnlərinin müəyyən edilməsi	2	2
7.	Muzey mənbəyinin elmi mənşəyinin müəyyən edilmə yolları	2	2
8.	Muzey əşyasının mənbəşünaslıq istiqamətində təhlili	2	2
9.	Muzey əşyasının ekspertizası və atribusiyası –muzey mənbəşünaslığının vəzifəsi kimi	2	2
10.	Arxiv mənbəşünaslığı anlayışının sistemli təhlili	2	2
11.	Arxiv mənbələrinin özünəməxsus xüsusiyyətləri	2	2
12.	Arxiv sənədləri-tarixi mənbə kimi	2	2
13.	Arxivlərdə rəsmi qeydiyyat sənədlərinin qorunma qaydaları	2	2
14.	Arxiv evristikası anlayışı	2	2
15.	Yazılı sənədlərin atribusiyasında mənbəşünaslıq üsullarının tətbiqi	2	2
CƏMİ: 60 saat		**30 s.**	**30 s.**

Mövzuların açılışı

Mövzu 1. Muzey mənbəşünaslığının muzeyşünaslıq aspektindən təhlili. Muzey mənbəşünaslığının obyekti və predmeti

Muzeyşünaslıq elmi və mənbəşünaslığın yaxınlığı. Muzey mənbəşünaslığının öyrənilməsində tədqiqatların istiqamət müxtəlifliyi. "Muzey mənbəşünaslığı" anlayışının 1970-ci ildə elmi dövriyyəyə daxil olması. Muzey mənbəşünaslığı - muzey əşyası və kolleksiyalarının üzə çıxarılması, tədqiqi və istifadəsi nəzəriyyəsi və metodikasını öyrənən elmi fənn kimi. Muzey əşyası - muzey mənbəşünaslığının tədqiqat obyekti kimi. Muzeyşünaslıqda mənbəşünaslıq metodlarının tətbiqi.

Mövzu 2. "Mənbə" və "muzey mənbəyi" anlayışları

Tarixi mənbənin xassələri və xüsusiyyətləri. Tarixi mənbələrin tədqiqat başlanğıcı. Mənbəşünaslığın bir elm kimi formalaşması. Mənbəşünaslıq fənninin yaranaraq formalaşması. "Mənbəşünaslıq tədqiqatı" anlayışı. Mənbəşünaslıq tədqiqatlarının növləri.

Mövzu 3. Muzey əşyası tarixi mənbə kimi

Muzey əşyası özü haqqında informasiya daşıyan mənbə kimi. Muzey əşyası real tarix və meydana çıxan məkan ilə bağlı obyekt kimi. Muzey əşyası məxsus olduğu dövrün abidəsi kimi. Muzey əşyasına tarixi mənbə kontekstindən yanaşmalar. Tarixi mənbələrə marağın artması və bunların əhəmiyyətinin dərk edilməsi

Mövzu 4. Mənbələrin təsnifatı

Tarixi mənbələrin təsnifatı haqqında anlayış. Tarixi mənbələrin İ.Droyzen, L.N.Puşkaryov, S.O.Şmidt tərəfindən təsnifatlarının işlənilməsi. Müxtəlif təsnifat sistemlərinin oxşar və fərqli cəhətləri. Mənbələrin tip və növlərinə görə ümumi təsnifatı. Müxtəlif qrupdan olan mənbələri öyrənən xüsusi tarixi fənlər. Hər mənbə tipinin səciyyəvi xüsusiyyətləri.

Mövzu 5: Muzey evristikası

Evristik vəzifələri həll edən köməkçi tarixi fənlər. Evristika-muzey mənbələrinin öyrənilməsi prosesi kimi. İnformasiya-axtarış apparatı və informasiya mərkəzlərinin yaradılması. Muzeyin elmi-məlumat apparatı, onun funksiyası və tərkibi. Muzey işinin əsas uçot sənədləri.

Mövzu 6. Muzeylərin mənbə mətnlərinin müəyyən edilməsi

"Mənbə mətni" anlayışı. Mənbənin ilkin mətninin, yəni məzmununun müəyyənləşdirilməsi və yeni tədqiqatlardan əlavələrin edilməsi. İstənilən tipdən olan mənbələrin şifrəsinin açılması. Verbal və qeyri-verbal mətnlər.

"Mənbələrin interpretasiyası" anlayışı.

Mövzu 7. Muzey mənbəyinin elmi mənşəyinin müəyyən edilmə yolları

Muzey əşyasının atribusiyası. Anonim mənbə məlumatlarının öyrənilərək işlənilməsi. Kriptoqramların araşdırılması. Mənbələrin əsillik problemləri.

Mövzu 8. Muzey əşyasının mənbəşünaslıq təhlili

Mənbəşünaslıq istiqamətində təhlilin tərifi. Muzey hermenevtikası. Mənbələrdə gerçəkliyin inikasının müxtəlif üsulları. Təsviri, əşyavi, işarə mənbələrinin informasiya imkanları.

Mənbə kimi muzey əşyasının interpretasiyası. Elmi fond işi prosesində muzey mənbələrinin interpretasiyası. Muzey ekspozisiyasının layihələndirilməsi prosesində eksponatların mənbəşünaslıq təhlili.

Mövzu 9. Muzey əşyasının ekspertizası və atribusiyası-mənbəşünaslıq təhlili kimi

Muzey mənbəyinin dəyər ekspertizası. Mənbənin qeydə alınması və qorunma mərhələsində mənşəyinin müəyyən edilməsi. Müəlliflik və əsillik problemi. Muzey əşyasının atribusiyası. Mənbənin müəllifi, tarixi, yaranma məkanının, şərait və motivlərin müəyyən edilməsi. Müəlliflik problemi. Mənbənin elmi sənədlərdə qeydə alınması.

Mövzu 10. Arxiv mənbəşünaslığı anlayışının sistemli təhlili

Arxiv mənbəşünaslığı-mənbələri arxivlərin tarixi üzrə öyrənmə sahəsi kimi. Arxivşünaslıq və mənbəşünaslıq nəzəriyyələrinin metodları arasında bağlılıq. Yazılı mənbələrin növləri.

Mövzu 11. Arxiv mənbələrinin özünəməxsus xüsusiyyətləri

Yazılı mənbələrin arxiv fondlarında mənbəşünaslıq prinsipinə uyğun olaraq kopmplektləşdirilməsi. Bu prosesdə

tarixi xronoloji prinsipin rolu. Arxiv mənbələrinin nomenklatura üzrə komplektləşdirilməsi.

Yazılı mənbələrin dəyər ekspertizasının mənbəşünaslıq aspektləri.

Mövzu 12. Arxiv sənədləri-tarixi mənbə kimi

"Arxiv sənədləri"nin informasiya dəyəri. Arxiv sənədini tarixi mənbə kimi təmsil edən meyar. Yazılı mənbənin tarixi mötəbərliyinin mərhələli şəkildə öyrənilməsi.

Mövzu 13. Arxivlərdə rəsmi qeydiyyat sənədlərinin qorunma qaydaları

Arxiv sənədlərinin tərkibi və məzmunu. Arxiv sənədləri zəngin məlumat mənbəyi kimi. Arxiv siyahılarının mənbəşünaslıq prinsipi əsasında tərtibi və qorunması.

Mövzu 14. Arxiv evristikası anlayışı

Arxiv evristikası-arxivşünaslığın bir istiqaməti kimi. Arxiv evristikası-sənədli retrospektiv informasiyanın axtarışını öyrənən sahə kimi. İnformasiyanın arxiv mənbələri üzrə axtarış metodikası. Arxiv mənbəyinin öyrənilməsi ardıcıllığı: arxiv şifrəsinin öyrənilməsi; nomenklatura üzrə indeksin öyrənilməsi. Arxivşünaslıq və arxeoqrafiyada mənbələrin üzə çıxarılması üçün informasiya-axtarış apparatının yaradılması. Arxivin elmi-məlumat apparatı- arxiv evristikasının əsas aləti kimi.

Mövzu 15. Yazılı mənbələrin atribusiyasında mənbəşünaslıq üsullarının tətbiqi

Yazılı mənbələrin atribusiyası: müəllifi, tarixi, i şəraitinin öyrənilməsi. Yazılı mənbənin əsilliyinin müəyyənləşdirilməsi. Yazılı mənbənin müəllifinin müəyyənləşdirilməsi. Mənbənin yaranma tarixinin iki istiqamətinin öyrənilməsi: a) mənbənin yaranma tarixi; b) mənbənin bizə qədr qeydiyyata götürülmüş tarixi.

Yazılı mənbədəki məlumatların orijinallıq dərəcəsinin öyrənilməsi.

Ədəbiyyat siyahısı
Azərbaycan dilində

1. Azərbaycan Respublikası Dövlət muzeylərində saxlanılan muzey sərvətlərinin uçotu və mühafizəsinə dair təlimat.B.;1996.
2. Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 2000.
3. Muzeyşünaslıq (dərslik), Bakı, "Mars-Print", 2002
4. E.Qurbanova. Tarix elmini inkişaf etdirən muzeyşünaslar. Bakı. 2011.
5. E.Məlikova, Dünya muzeyləri – Kataloq. Bakı, 1995
6. E.Məlikova. Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası. Dərslik. Bakı, "Gənclik" nəşriyyatı, 2011.
7. E.Məlikova-Qurbanova. Bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu. Monoqrafiya. Bakı, 2014.
8. E.Qurbanova. Muzeylər milli mədəniyyət kontekstində. "Milli mədəniyyətimiz bu günkü reallıq qarşısında" adlı elmi-nəzəri konfrans. Bakı, ADMİU-nun nəşriyyatı.
9. E.Qurbanova. "İctimai həyatda bədii mədəniyyətin rolu". Проблема исскуства и культуры. VI –й конференций молодых ученых посвященной 90-летию со дня рождение академика М.И. Усейнова.
10. E.Qurbanova. İncəsənət muzeyləri və milli müəyyənlik problemləri: "Qafqaz: tarix, müasirlik və geosiyasi perspektivlər". Beynəlxalq elmi konfransın materialları. Bakı, "Elm mətbəəsi", 1996.
11. E.Qurbanova. Azərbaycanda bədii mədəniyyətin təşəkkülü və inkişafının əsas istiqamətləri. Metodik vəsait. Bakı. 1997.
12. E.Qurbanova. Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası. Tematik plan və proqram. Bakı, "Mars-Print" nəşriyyatı. 1999.
13. E.Qurbanova. Müasir muzey fəaliyyətinin elmi-tədqiqat işlərində yeniliklər. Mədəniyyətlərarası dialoqda

ənənəvi incəsənətin rolu. ADMİU-nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi-nəzəri konfransın materialları. Bakı, 2012.
14. E.Məlikova-Qurbanova. Müasir muzey fəaliyyətində tarixiliyə elmi münasibət. Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu. II Respublika elmi konfransının materialları. Bakı, 18.06.2012.
15. E.Qurbanova. Tarix elminin muzeyşünas cəfakeşləri. Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf adlı Beynəlxalq konfrans. Bakı, 2012.
16. E.Məlikova-Qurbanova. Tarix profilli muzeylərin yaranma səbəbləri. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XVI Beynəlxalq elmi-praktik konfrans. Bakı, 2017.
17. E.Məlikova-Qurbanova. Azərbaycanın ilk bərpaçı rəssamı Fərhad Hacıyevin yaradıcılığına dair. Milli Azərbaycan Tarixi muzeyi. Bakı, 2017

Rus dilində

18. Белоусов М.Р., Сальникова А.А. Источниковедение. ЭОР.2014.
19. Суринов В. М. Музейность источника. Методологический анализ проблемы // Актуальные проблемы советского музееведения: сборник трудов / ЦМР СССР. М., 1987.
20. Основы музееведения: учебное пособие для студентов высших учебных заведений, обучающихся специальности «Музейное дело и охрана памятников». Москва.: Едиториал УРСС, 2013. 501 с.
21. Колесников А.А. Архивное источниковедение (методическое пособие и программа спецкурса). Бишкек, 2007.

22. Меликова – Гурбанова Эльфира. Кадровая подготовка специалистов – музееведов по изучению экскурсионного метода. Turizm və qonaqpərvərlik tədqiqatları. Beynəlxalq jurnal /International jurnal. il 4. Say 4, 2015.
23. Меликова – Гурбанова Эльфира. Науковедческое понятие музееведения факты и анализ. Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri: XV Beynəlxalq elmi-praktik konfrans. Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunur. Bakı, 02 may 2016.
24. Меликова – Гурбанова Эльфира. XX век: Начало и развитие мультикультурального общества Азербайджана. Multikulturalizm konsepsiyasının sosial-fəlsəfi və mədəni əsasları mövzusunda respublika elmi-nəzəri konfrans. Bakı, 2016

Türk dilində

25. Elfira Məlikova - Qurbanova. Muzeyçiliyin bilimsel kavramalar açıdan anlamı. Belgü. Erdahan Universitesi İnsani bilimler ve edebiyat fakültesi dergisi. Yıl:2016, sayı 3.

Sərbəst mövzular

1. Muzeylər elmi-mərkəzlər kimi
2. Muzeylər tarixi obyekt kimi
3. Muzeylər yarımfunksional müəssisələr kimi
4. Muzey psixologiyası və pedaqogikasının öyrənilməsi metodları
5. Muzeyşünaslıq elminin tarixi
6. Muzeylər sosial mühit kimi
7. Muzeyin "elmi-kütləvi" şöbəsinin material mənbəyi
8. Muzeyin "fond şöbəsi"nin material mənbəyi
9. "Muzey sənədləri" anlayışının təhlili
10. Muzeylərin təbliğində muzey kataloqunun rolu
11. Muzeylərin təbliğində tədqiqatların rolu
12. Muzeylərin təbliğində bukletlərin əhəmiyyəti
13. Muzeylərin təbliğində sosioloji araşdırmaların əhəmiyyəti
14. Muzeylərin təbliğində elmi məqalələrin əhəmiyyəti
15. "Muzey mənbəşünaslığı"nın tədqiqat potensialı
16. Muzey fondları elmi mənbə kimi
17. Muzey arxivində saxlanan materialların elmi dəyəri
18. Tarix və arxiv anlayışlarının müqayisəli təhlili
19. Muzey arxivi elmi əsərlərin əsas mənbəyi kimi
20. Muzeydə arxiv mədəniyyəti
21. Cəmiyyətdə "arxiv mədəniyyəti" anlayışının real təzahürü
22. Fond və arxiv mənbəşünaslığının oxşar cəhətləri
23. Fond və arxiv mənbəşünaslığının fərqli cəhətləri
24. Arxivlər milli tarixin əsas informasiya mənbəyi kimi
25. Milli tarixin dəyərləndirilmə prinsipi
26. İnformasiyanın çatdırılma surətinin artırılmasında arxivlərin rolu
27. Dünya elmlərinin inteqrasiyasında arxiv materiallarının əhəmiyyəti
28. Arxivlər əsas informasiya mənbəyi kimi

29. Muzey nəşrlərinin spesifik xüsusiyyətləri
30. Müasir muzey fəaliyyətində arxiv mənbələrindən istifadə metodikası
31. Muzeyşünaslıq və mənbəşünaslığın yaxınlığı
32. Muzey mənbəşünaslığı - muzey əşya və kolleksiyalarını üzə çıxaran, tədqiq edən elmi fənn kimi
33. Muzey əşyası- muzey mənbəşünaslığının obyekti kimi
34. Tarixi mənbənin xassələri
35. Tarixi mənbə-muzey mənbəyi kimi
36. Muzey əşyası dəyərli predmet kimi
37. Tarixi mənbələrin İ.Droyzen, L.N.Puşkaryov, S.O.Şmidt tərəfindən təsnifatlarının işlənilməsi
38. Muzey evristikasının vəzifələri
39. "Muzey mənbələrinin interpretasiyası" anlayışı
40. "Muzey mənbəyi" anlayışı mənşəyinin müəyyən edilməsi
41. Təsviri, əşyavi, işarə mənbələrinin informasiya imkanları
42. Muzey əşyasının mənbə kimi interpretasiyası
43. Muzey əşyasının atribusiyası
44. Arxiv mənbəşünaslığı-mənbələri arxiv sənədlərini öyrənən sahə kimi
45. Arxiv fondlarında yazılı mənbələrin mənbəşünaslıq prinsipinə uyğun olaraq kopmplektləşdirilməsi
46. İnformativlik-arxiv sənədini tarixi mənbə kimi təmsil edən meyar kimi
47. Yazılı mənbənin tarixi mötəbərliyinin öyrənilməsi
48. Arxiv evristikası-arxivşünaslığın bir istiqaməti kimi
49. Yazılı mənbə orjinallığının müəyyən etmə metodları
50. Yazılı mənbədəki məlumatların orjinal dərəcəsinin öyrənilməsi

Çapa imzalanmışdır: 11.09.2018
Kağız formatı: 60x84 1/16
ADMİU-nun mətbəəsində çap edilmişdir.
Ünvan: Bakı şəh., H.Zərdabi küç., 39 a
Tel: (012) 434 – 50 – 04